

*Elvin Paşa (Talıbov Elvin Paşa oğlu) 1988-ci ildə Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olub. 2010-cu ildə ADİU-nu bitirib. Gənc şair "Qara Qutu" və "Almafobiya" adlı şeir kitablarının müəllifidir. Müntəzəm olaraq dövri mətbuatda çıxış edir.*

*Elvin Paşa eyni zamanda ssenarist və aktyor kimi də fəaliyyət göstərir.*

*Belə ki, 2007-2008-ci illərdə İctimai Tv-nin "Telesəhnə" verilişində aktyor kimi çıxış edib. Bi… filmində baş rol… vanı" filminin isə icracıprodüsseri olub.*

## İtirdim

Yavaş-yavaş itiririk bir ucdan;
Bir gün ayaq çıxıb gedir, qayıtmır.
Bir gün əllər tərk eliyir qolları...
Nigaranam ayağımdan...görəsən,
tapacaqmı getmədiyim yolları?

Yavaş-yavaş itiririk bir ucdan...
Necə yığım calaq-calaq illəri?

Əlim məndən öndə gedir, İlahi
Qaytar mənə...
yapışmağa ümid gəzən əlləri

Ayağımdan itirməyə başladım,
ürəyimi də itirməyə hazıram.
Min ömürlük məsafədə qoyduğun
bir nəfəslik o həqiqi sevgini
İcazə ver,
götürməyə hazıram...

***

...Saçlarına qurban olum,
saçlarını ağartma.
...Əllərinə qurban olum,
duaları unutma

...Gözlərinə qurban olum,
ha tərəfə baxırsan?
Dillərinə qurban olum...
Bilirsən ki gələrəm
hansı yoldan çağırsan.

...Ürəyinə qurban olum,
dərmanını içirsən?
...Baxışına qurban olum,
nəyin dərdin çəkirsən?

...Gülüşünə qurban olum,
necə gözəl gülüşdü.
...Ayağına qurban olum,
həyatımı dəyişdi.

...Kipriyinə qurban olum,
yanağında arzu var.
...niyə belə titrəyir
dodağında arzular.

Həyatına qurban olum...
Çox oynama ocaqla.
...Qollarına qurban olum,
məni görsən qucaqla

Allahına qurban olum,
aramızı qatırlar...
...Hərdən sən də qurban ol,
hərdən məni xatırla.

**Elvin Paşa**

Türküstan.- 2020.- 23-29 iyun.- S.22.